**UOT 78:004.032.6:530.145**
**ORCID: 0000-0001-6251-7556**
**DOI: 10.52094/SIUJ7299**

**Yasin Xələf oğlu Xəlilov**
**Bakı Mühəndislik Universiteti**
**Dosent**
**yxalilov@beu.edu.az**

# MUSİQİ VƏ KVANT İNFORMASİYA MODELİ

**Xülasə:** Məqalə musiqi fenomeninin təbiətini izah etmək üçün ənənəvi akustika, psixologiya və nevrobilim yanaşmalarının kənarına çıxan yeni bir ontoloji-enerji modeli təklif edir. Tədqiqatın əsas məqsədi, musiqi, səs və şüur arasındakı qarşılıqlı əlaqəni vahid bir “Kvant İnformasiya Modeli” çərçivəsində izah etməkdir. Giriş hissəsində musiqinin universal təsir qüvvəsi və onun ənənəvi elmlə izahında qalan boşluqlar – yaradıcılığın mənşəyi, harmonikaların universallığı və subyektiv məna problemləri qeyd olunur.

Əsas hissədə ilk növbədə musiqinin tarixi kökləri, Pifaqorun harmonik nisbətləri və müasir nevromusiqologiya, psixoakustika kimi elmi yanaşmaların musiqinin qavranılması prosesini necə izah etdiyi, lakin ontoloji çətinliklər qarşısında necə çətinlik çəkdiyi təhlil edilir. Daha sonra, bu çətinlikləri aradan qaldırmaq üçün Kvant Fizikası prinsipləri əsasında qurulan alternativ bir model təqdim olunur. Bu modelə görə, musiqi fundamental bir “kvant informasiya sahəsi”ndə superpozisiya halında mövcud olan ehtimal dalğaları kimi başa düşülür; bəstəkar, ifaçı və dinləyici isə bu sahə ilə qarşılıqlı əlaqədə olaraq informasiyanı “çökdürən” və fiziki reallığa köçürən amillərdir. Modelin dekoherensiya problemi ilə necə məşğul olduğu və ənənəvi kvant şüur nəzəriyyələrindən konseptual fərqi izah olunur.

Nəhayət, modelin izah qüvvəsi Azərbaycan muğamı, azan və ana laylası kimi konkret mədəni və təbii nümunələr üzərində yoxlanılır. Bu nümunələr əsasında modelin musiqinin emosional və transsendental təsirlərini necə vahid bir enerji-informasiya mübadiləsi prinsipi ilə izah edə biləcəyi göstərilir. Müqayisəli təhlildə isə təklif olunan ontoloji-enerji modelinin ənənəvi musiqi nəzəriyyələri qarşısındakı üstünlükləri və məhdudiyyətləri müzakirə olunur.

**Açar sözlər:** Kvant informasiya modeli, musiqi ontologiyası, enerji-informasiya mübadiləsi, muğam və şüur, harmonik universallıq

**Giriş.** Musiqi, insanlıq tarixinin bütün mərhələlərində və bütün mədəniyyətlərdə mövcud olan universal bir fenomendir. O, nəinki bir incəsənət forması, həm də insanın emosional, psixoloji və hətta fizioloji vəziyyətinə birbaşa təsir göstərən mürəkkəb bir hadisədir. Bu qədər universal və dərin təsir qüvvəsinə malik olması, onun təbiətini anlamaq üçün davamlı bir axtarışa səbəb olmuşdur.

Ənənəvi olaraq, musiqi fizika (akustika), psixologiya və musiqişünaslıq çərçivəsində öyrənilmişdir. Fiziki baxımdan o, müəyyən tezlik və amplitudalara malik səs dalğaları kimi təsvir olunur. Psixoloji baxımdan isə, musiqi xatirələr, assosiasiyalar və emosional proseslər vasitəsilə öyrənilir. Lakin, bu yanaşmaların hər bizi öz-özünə cavabsız suallar buraxır: Musiqinin müəyyən bir insanda niyə avtomatik olaraq göz yaşı axırtdıran və ya dərin trans vəziyyətinə salan gücü haradan gəlir? Niyə ana laylası bütün dünya körpələrini eyni dərəcədə sakitləşdirir? Musiqinin bu primitiv və eyni zamanda mürəkkəb təsirinin təməl mexanizmi nədir?

Müasir elm, xüsusilə nevrobilim və psixoakustika, musiqi qavrayışının başlanğıc nöqtəsini fiziki səs dalğaları kimi qəbul edir və onun qulaq, ilbiz, eşitmə siniri və nəhayət beyin korteksi, limbik sistem və mükafat mərkəzlərində necə emal olunduğunu ətraflı təsvir edir (Koelsch, 2014, s.170-180; Levitin, 2006). Funksional maqnit rezonans tomoqrafiyası (fMRI) kimi metodlar sayəsində musiqinin geniş neyronal şəbəkələri, o cümlədən emosiyaların idarə olunduğu amiqdala və həzzlə əlaqəli nukleus akkumbensi aktivləşdirdiyi sübuta yetirilmişdir. Lakin, bu empirik uğurlar bəzi fundamental sualları kölgədə qoyur:

**Yaradıcılıq problemi:** Neyrobilim, artıq mövcud olan musiqinin emalını izah edir, lakin bəstəkarın zehnində tam formada yaranan yeni bir melodiyanın – "ilham anı"nın – ontoloji mənbəyini izah edə bilmir;

**Universallıq problemi:** Niyə müəyyən harmoniyalar və interval nisbətləri (Pifaqorun kəşf etdiyi kimi) mədəniyyətlər arasında universal olaraq gərginlik və ya rahatlıq hissi yaradır? Bu, sadəcə öyrənilmiş bir konvensiya və ya bioloji bir adaptasiya ilə izah edilə bilərmi?

**Məna problemi:** Musiqinin yaratdığı subyektiv məna və bəzən "transsendental" olaraq təsvir edilən dərin təcrübələr (muğam dinləyicisinin yaşadığı katarsis) sırf neyrokimyəvi proseslərlə tam izah oluna bilərmi?

Bu çətinliklər, hadisəni yalnız beyin aktivliyi və ya səs fizikası səviyyəsində deyil, daha fundamental bir reallıq müstəvisində anlamağa ehtiyac olduğunu göstərir. Məhz bu boşluq, bizə musiqinin təbiətini anlamaq üçün daha geniş, transdisiplinar bir modelin zəruri olduğunu göstərir. Son illərdə kvant fizikası, informasiya nəzəriyyəsi və şüurun tədqiqi sahələrində əldə edilən irəliləyişlər, yeni bir baxış bucağı təklif etmə potensialına malikdir. Kvant fizikasının "hər şey enerji və vibrasiyadır" prinsipi ilə musiqinin fiziki təbiəti arasında birbaşa əlaqə qurmağa cəhd etməkdə fayda var, deyə düşünürük. Eyni zamanda, kvant nəzəriyyələri musiqinin kökdən necə yarandığını və insan şüuruna necə təsir etdiyini izah etməyə kömək edə bilər. Musiqi, **kvant informasiya sahəsindəki superpozisiya halında olan ehtimalların**, **qeyri-səlis məntiq qaydalarına əsasən** şüur tərəfindən 'çökdürülməsi' və fiziki reallığa keçirilməsi prosesidir. Bu proses xətti və diskret deyil, spektral və davamlıdır, deyə düşünürük.

Bu **tədqiqatın əsas məqsədi**, musiqi, səs və şüur arasındakı qarşılıqlı əlaqəni izah etmək üçün vahid bir **"Enerji-informasiya modeli"** çərçivəsi qurmaqdır. Bu model çərçivəsində:

- Musiqinin yalnız fiziki bir hadisə deyil, həm də fundamental bir informasiya sahəsinin məhsulu olduğu,
- Bəstəkar, ifaçı və dinləyicinin bu enerji-informasiya axınında müxtəlif rollar oynadığı,
- Musiqinin təsirinin, enerjinin şüur sahəsi ilə rezonansı nəticəsində yarandığı fikri irəli sürüləcəkdir.

Kvant fizikasının 'hər şey enerji və vibrasiyadır' prinsipi ilə musiqinin fiziki təbiəti arasında əlaqə qurmaq üçün Zadeh (1965)-in qeyri-səlis çoxluqlar nəzəriyyəsi əsasında yeni bir baxış təklif olunur.

Bu yanaşma, təkcə elmi dairələrdə deyil, həm də musiqi terapiyası, maarifləndirmə və insan şüurunun öyrənilməsi kimi sahələrdə də yeni perspektivlər aça bilər.

## 1. MUSİQİ HARMONİYASI

**1.1. Harmoniyanın "tarixi kökləri"**. Musiqi nəzəriyyəsinin əsasları qədim dövrlərdə riyazi-harmonik prinsiplər kimi formalaşmışdır. Pifaqor məktəbi (e.ə. VI əsr) tərəfindən kəşf edilmiş səsli interval nisbətləri (oktava – 2:1, kvinta – 3:2, kvarta – 4:3) musiqi ilə riyaziyyat arasında birbaşa əlaqəni ortaya qoymuşdur. Pifaqorçular üçün bu nisbətlər kainatın fundamental qaydalarını əks etdirirdi – "kosmosun musiqisi" anlayışı məhz onların təsiri ilə formalaşmışdır.

Platon "Dövlət" əsərində musiqi nəzəriyyəsini etika ilə bağlamış, müəyyən ladların insan xarakterinə (ethos) təsir göstərdiyini iddia etmişdir. Onun fikrincə, dor ladı qəhrəmanlıq, frig ladı isə hədsiz həyəcan oyadırdı. Aristotel də "Poetika" əsərində musiqi terapiyası anlayışını inkişaf etdirmiş, katarzis (təmizlənmə) konsepsiyasını irəli sürmüşdür.

İslam Qızıl Əsri alimləri musiqi nəzəriyyəsini yeni mərhələyə qaldırdılar. Əl-Kindinin "Musiqi haqqında risalə" əsəri ərəb dilində ilk sistemli musiqi traktatı hesab olunur. Əl-Farabi "Böyük musiqi kitabı"nda səsin fiziki təbiətini təhlil etmiş, səs titrəyişlərinin riyazi izahını vermişdir. İbn Sinanın "Əş-Şifa" əsərində isə musiqi terapiyasına dair fikirləri müstəqil fənn kimi təqdim olunmuşdur.

**1.2. Müasir elmi yanaşmalar: neyromusiqologiya və psixoakustika**. Müasir dövrdə musiqi tədqiqatları əsasən neyromusiqologiya və psixoakustika çərçivəsində inkişaf edir. Neuromusiqologiya – musiqi və beyin arasındakı qarşılıqlı əlaqəni öyrənən fənlərarası sahə kimi formalaşmışdır. Tədqiqatlar göstərir ki, musiqi zamanı beyində eşitmə, emosiya və hərəkət mərkəzləri eyni vaxtda aktivləşir (Zatorre, 2003, s. 4-14). Limbik sistemin, xüsusilə də amiqdalanın musiqi zamanı aktivliyi onun emosional təsir mexanizmini aydınlaşdırır.

Psixoakustika isə səsin psixofizioloji qavranışını öyrənir. Bu sahənin banisi sayılan Gustav Fechnerin (1801-1887) işləri səs fizikası ilə onun subyektiv qavranışı arasındakı əlaqəni müəyyən etmişdir. Müasir tədqiqatlar hər bir musiqi intervalının spesifik psixoloji təsirə malik olduğunu göstərir (Krumhansl, 1990).

**1.3. Musiqi qavrayışının izahında ontoloji çətinliklər**. Musiqi təcrübəsinin elmi izahı, onun fiziki bir hadisədən psixoloji bir reallığa çevrilməsinin mürəkkəb zəncirini təsvir edir. Bu prosesin hər bir halqası diqqətlə öyrənilmiş olsa da, onun son həqiqəti izah etmək qabiliyyəti fundamental çətinliklərlə üzləşir.

**1.3.1. Musiqi qavrayışının səyahəti**. Musiqi qavrayışının səyahəti fiziki dünyada səs dalğaları kimi başlayır. Bu dalğaların tezliyi (pitch), amplitudası (loudness) və mürəkkəb spektral quruluşu (timbre) musiqi parçasının xammalını təşkil edir. Qulaq seyvanı bu enerjini toplayaraq orta qulağa ötürür, burada ossikullar titrəyişi gücləndirir. Daxili qulaqda yerləşən koklea isə bu mexaniki titrəyişi neyral siqnala çevirən bir transduser kimi çıxış edir. Kokleanın bazilyar membranı üzərində yerləşən

minlərlə tük hüceyrəsi, müxtəlif tezliklərə uyğun rezonansa girərək, fiziki dünya üçün sinir sisteminin qapısını açır. Bu nöqtədə, səs enerjisi elektrokimyəvi impulslara çevrilərək eşitmə siniri vasitəsilə beyin kötüyünə doğru yola düşür.

**1.3.2. Beyində neyral emalın mərhələləri.** Beyin, bu neyral siqnalları mənalı bir musiqi təcrübəsinə çevirmək üçün iyerarxik və paralel bir emal sistemindən istifadə edir:

**İlkin emal: Xammalın təşkili:** Siqnallar ilk növbədə ilkin eşitmə qabığında (primary auditory cortex) emal olunur. Burada səsin əsas xüsusiyyətləri – ton yüksəkliyi, ucalıq və lokalizasiya – bir-birindən ayrılır. Bu, musiqi üçün xammalın hazırlandığı emal zonasıdır;

**Yüksək səviyyəli analiz: Mənanın axtarışı:** İlkin emaldan sonra məlumat, yuxarı yanqı oynağında (superior temporal gyrus) daha mürəkkəb analiz üçün paylanır. Bu bölgə melodiyanın konturunu, harmoniyanın ardıcıllığını və musiqi ifadələrinin strukturunu emal edir. Daniel Levitinin (2006) tədqiqatları göstərir ki, beyin daimi olaraq gələcək səslərə dair proqnozlar irəli sürür. Gözləntilərimiz təsdiqləndikdə (məsələn, tonik akkorda qayıdış) bir növ kognitiv mükafat, pozulduqda isə təəccüb və ya gərginlik hissi yaranır. Carol Krumhansl-ın (1990) tonal iyerarxiya nəzəriyyəsi də bu prosesi təsdiqləyir: dinləyicilər şüuraltı olaraq tonikanı (əsas not) və dominantı (beşinci notu) digər notlardan daha sabit və gözlənilən hesab edir, bu da musiqi dilinin qrammatikasının psixoloji əsasını təşkil edir;

**Emosional və bədii rənglənmə:** Musiqi yalnız struktur deyil, həm də emosiyadır. Bu aspektdə limbik sistem, xüsusilə də emosional yaddaş və reaksiyalarla bağlı amiqdala və hippokamp həlledici rol oynayır. Musiqi bu strukturları birbaşa aktivləşdirərək, güclü emosional xatirələr və assosiasiyalar oyada bilir;

**Bədənin cavabı və həzz:** Musiqinin ritmik tərəfi beyinciyi (cerebellum) və bazal qanqliyaları aktivləşdirərək, ayaq döymə və ya rəqs kimi motor reaksiyaları təşviq edir. Lakin ən diqqətçəkən kəşflərdən biri, musiqi ilə mükafat sisteminin əlaqəsidir. Ferreri və həmkaralarının (2019) tədqiqatları sübut edir ki, xoşumuza gələn, xüsusilə də gözləntilərimizi təmin edən və ya təəccübləndirən musiqi parçaları dinləyərkən, nukleus akkumbensdə dopamin ifraz olunur. Bu, qida, pul və ya sosial mükafat kimi digər həzz mənbələrindən alınan zövqlə eyni neyrokimyəvi mexanizmdir.

**1.4. Ontoloji çətinliklər: Elmin “Niyə” sualları qarşısında dəlilsiz qalması**. Nevrobilim və psixoakustikanın bu detallı xəritəsi müəyyən bir səviyyəyə

qədər "necə" sualına cavab verir: *Musiqi beyində necə emal olunur?* Lakin, bu, daha dərin ontoloji suallar qarşısında aciz qalır:

**Yaradıcılığın mənşəyi problemi:** Bu model, artıq mövcud olan bir musiqinin dinləyici tərəfindən emalını izah edir. Lakin bəstəkarın zehnində tamamilə yeni, heç vaxt eşidilməmiş bir melodiyanın, ya da harmonik irəliləyişin *ex nihilo* (heçdən) necə peyda olduğunu izah etmək qabiliyyətindən məhrumdur. Neyronların təsadüfi atəşi və ya keçirilmiş təcrübələrin yeni kombinasiyaları kimi izahlar, ilham anının keyfiyyətini – onun tamlıq, uyğunluq və gözlənilməz dərinlik hissini – tam əks etdirmir. Neyronların aktivlik nümunələri ilə tam formalaşmış musiqi ideyası arasındakı uçurum necə aradan qaldırılır?

**Məna və təcrübənin özünəməxsusluğu problemi:** Beynin müəyyən bir akkorda dopamin ilə cavab verməsi onun niyə "kədərli" (məsələn, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Leylinin qəbri üstündə Məcnunun fəryadı və ölümü, VI hissə) və ya "qəhrəmanlıq" (məsələn, Üzeyir Hacıbəyovun "Koroğlu" operasında Koroğlu uverturası) hissi oyatdığını izah etmir. Musiqi ilə emosiya arasındakı əlaqə, şəxsi yaddaş, mədəni kodlar və məna ilə bağlıdır. Eyni beyin aktivliyi nümunəsi bir şəxsdə xatirə, digərində isə boş bir emosional reaksiya yarada bilər. Fizioloji proseslər subyektiv məna və transsendental təcrübələri (məsələn, muğam dinləyərkən yaşanan katarsisi) necə yaradır?

**Harmonik universallıq problemi:** Niyə Pifaqor intervalları (məsələn, 3:2 nisbətində olan kvint) və ya müəyyən akkord irəliləyişləri (gərginlikdən həllə) dünyanın demək olar ki, bütün mədəniyyətlərində oxşar emosional reaksiyalar oyadır? Bu, sadəcə öyrənilmiş bir konvensiya və ya təbii seçmə nəticəsində yaranmış bir adaptasiya ilə tam izah edilə bilməz. Bu universal dil, onun yalnız beyin quruluşumuzun təsadüfi bir məhsulu olduğu fikri ilə kifayət qədər əsaslandırıla bilməz. Bu harmonik qanunların kökləri yalnız bioloji deyil, daha fundamental, riyazi-ontoloji bir səviyyədə yerləşirmi?

**Nəticə:** Musiqi qavrayışının elmi modeli, heyrətamiz bir mürəkkəblik və dəqiqliklə qurulmuşdur. Lakin, o, özünü təsvir etdiyi fenomenin mahiyyətini tam əhatə edə bilmir. O, musiqi təcrübəsinin "partiturasını" (neyronların necə "çaldığını") verir, lakin bu musiqinin niyə "gözəl" və ya "mənalı" olduğunu, onun haradan gəldiyini və niyə ürəyimizə belə dərin yolla çatdığını izah edə bilmir. Bu ontoloji boşluq, daha fundamental bir izah axtarışını – məsələn, musiqinin ilkin olaraq fiziki deyil, informasiya və ya ehtimal səviyyəsində mövcud olduğu fikrini – zəruri edir.

**1.5. Kvant paradigması və şüur**. Kvant fizikasının konseptual çərçivəsi musiqi tədqiqatları üçün yeni perspektivlər təqdim edir. Kvant mexanikasının əsas prinsipləri - dalğa-hissəcik dualizmi, müşahidəçi təsiri və enerjinin kvantlanması - informasiya və enerji mübadiləsinin təbiətini başa düşmək üçün fəlsəfi baza yaradır.

Kvant informasiya nəzəriyyəsi (John Wheeler, David Bohm) kainatın əsasının fiziki deyil, informatika olduğu fikrini irəli sürür. Bu baxımdan, musiqi qanunları fundamental informasiya sahəsinin təzahürü kimi şərh oluna bilər.

Penrose-Hameroffun "Orkestrləşdirilmiş obyekt çökümü" nəzəriyyəsi şüurun kvant əsaslarını ortaya qoymağa çalışır (Hameroff & Penrose, 2014, s.39-78). Bu nəzəriyyəyə görə, şüur prosesləri neyronların mikrotubullarında baş verən kvant halları ilə əlaqədardır. Onun əsas tezisləri aşağıdakılardır:

**Kvant hesablama mikrotubullarda:** Penrouz və Hameroff iddia edirlər ki, şüur klassik neyrokimyəvi proseslərin (sinapslar arasında siqnal ötürülməsi) birbaşa məhsulu deyil. Əksinə, o, beyin neyronlarının daxilindəki **mikrotubul-** adlanan zülal strukturlarında baş verən kvant hesablamalarının nəticəsidir.

**Mikrotubullar kvant sahəsi kimi:** Nəzəriyyəyə görə, bu mikrotubullar kvant superpozisiya vəziyyətlərini ("ehtimallar buluduun") qorumaq üçün kifayət qədər qapalı bir mühit təmin edirlər. Onlar kvant kompüterinin prosessorları kimi fəaliyyət göstərirlər.

**Obyektiv reduksiya:** Penrouzun fikrincə, superpozisiya vəziyyətinin özözünə çökməsi (reduksiya) xarici bir müşahidəçidən asılı deyil, obyektivdir və kosmik cazibə qüvvəsi kimi fundamental fiziki qanunlarla baş verir. Bu çökmə anları, şüur anlarının özüdür. "Orkestrləşdirilmiş" ifadəsi isə beyin biokimyasının bu kvant çökmələrini idarə etdiyini bildirir.

Beləliklə, Orch-OR nəzəriyyəsinə görə, düşüncə, emosiya və o cümlədən musiqi təcrübəsi də, nəhayət, neyronların daxilində baş verən bu kvant miqyaslı hadisələrin nəticəsidir.

Bu yanaşma musiqi təsirinin kvant səviyyəsində başa düşülməsi üçün konseptual baza təqdim edir. Əslində beyində baş verən proseslərin də kvant xarakterli olması iddiası aşağıda bizim tərəfdən irəli sürülən modelimizi daha da gücləndirir, çünki kvant informasiya sahəsi ilə beyinin kvant idarəetmə mexanizmləri arasında əlaqə eyni prinsipə bağlanır. Digər tərəfdən iddia olunur ki, kvant superpozisiya vəziyyətləri son dərəcə kövrəkdir. Ətraf mühitlə (atomlar, molekullar) ən kiçik bir istilik və ya fiziki qarşılıqlı təsir, onların koherent vəziyyətini məhv edir. Bu prosesə dekoherensiya deyilir. Fizik Maks Teqmark (2000) he-

sablamaları ilə göstərmişdir ki, beyin "isti, nəm və səs-küylü" bir mühitdir. Belə bir mühitdə, mikrotubullarda baş verən hər hansı bir kvant superpozisiyasının, şüurlu təcrübə üçün lazım olan vaxt miqyasında (millisaniyələr və ya daha çox) sağ qalması fiziki olaraq qeyri-mümkündür. Kvant effektləri nano- və ya pikosaniyələr ərzində dəkoherensiyaya uğrayarkən, beyin prosesləri min dəfə daha yavaş baş verir. Beləliklə, kvant effektlərinin belə bir sistemdə funksional bir rol oynayacağı fikri, mövcud fiziki biliklərlə ziddiyyət təşkil edir.

Kvant şüuru nəzəriyyəsinə qarşı əsas elmi etirazlardan biri də onunla bağlıdır ki, tənqidçilər iddia edirlər ki, şüurun yaranması üçün kifayət qədər mürəkkəb hesab edilən neyron şəbəkələri artıq mövcuddur, onların alt səviyyəsində daha bir kvant mexanizmini axtarmağa ehtiyac yoxdur. Bu, "həddən artıq izah" kimi qəbul edilə bilər. Belə çox ciddi tənqidlərə baxmayaraq, "kvant şüuru" fikri hələ tamamilə söndürülməyib. Bunun bir neçə səbəbi var:

**1. Anesteziya misteriyası:** Stuart Hameroff (2006) (anesteziologdur) qeyd edir ki, müəyyən qaz molekulları (xloroform, xenon və s.) şüuru söndürür, lakin onların sinir hüceyrələrinə heç bir zərəri yoxdur. Onun fikrincə, bu qazlar mikrotubulların kvant rezonansını pozur və beləliklə şüuru "söndürür". Bu, nəzəriyyə üçün dolayı bir dəlil kimi təqdim olunur.

**2. Kvant biologiyanın yüksəlişi**: Son illərdə, "kvant biologiyası" sahəsində sübutlar ortaya çıxır. Məsələn: **Quşların mexaniki kompası: Lambert və h. (2013)-ün qeyd etdiyi kimi,** bəzi quşların gözlərində Yerin maqnit sahəsini hiss etmələrini təmin edən kvant dolaşıqlığı əsaslı bir mexanizm aşkar edilib. **Fotosintez:** Bitkilər fotosintez zamanı enerjini ötürmək üçün kvant effektlərindən səmərəli şəkildə istifadə edirlər.

Bu kəşflər göstərir ki, "isti, nəm və səs-küylü" bioloji sistemlərdə də kvant effektləri mümkündür. Lakin, bunlar çox xüsusi, lokal və qısa müddətli proseslərdir. Şüur kimi mürəkkəb bir fenomeni idarə etmələri isə tamamilə fərqli bir məsələdir.

**3. Fəlsəfi cəlbedicilik:** Kvant nəzəriyyəsi, şüurun ən böyük fəlsəfi problemlərindən biri olan "İştirak problemi"nə (Hard Problem of Consciousness) – yəni fiziki bir prosesin (beyin) necə olub subyektiv bir təcrübə (hiss) yaratdığına – potensial bir həll təklif edir. Bu, onu bir çox filosof və alterativ elm tərəfdarları üçün cəlbedici edir.

Hazırkı elmi konsensus budur ki, beyin, şüurun yaranması üçün kifayət qədər mürəkkəb olan, lakin əsasən klassik (kvant olmayan) prinsiplərlə işləyən bir sistemdir.

Bizim təqdim etdiyimiz izahat kvant proseslərinin, o cümlədən superpozisiyanın beyində yox, kvant informasiya şəbəkəsində baş verdiyini iddia edir, beyində isə biz kollapsı müşahidə edirik.

## 2. KVANT İNFORMASİYA MODELİ VƏ DEKOHERENSİYA PROBLEMİNİN HƏLLİ

Təklif olunan **Kvant İnformasiya Modeli**, musiqi-şüur əlaqəsinə fundamental yeni bir baxış təqdim edir. Onun həqiqi dəyərini və statusunu qiymətləndirmək üçün onun əsas üstünlüklərini, qarşılaşdığı etirazları və xüsusilə də ən ciddi elmi problem olan dekoherensiya ilə necə davrandığını nəzərdən keçirmək vacibdir.

**2.1. Modelin üstünlükləri: "Niyə" sualına cavab**. Modelin əsas gücü, ənənəvi elmin metodoloji sərhədləri xaricində qalan suallara fəlsəfi bir izah çərçivəsi təqdim etməsindədir:

**Yaradıcılıq və ilhamın problemini həll edir:** Model, bəstəkarı yoxdan var edən deyil, fundamental informasiya sahəsində artıq mövcud olan ehtimalları kəşf edən və onları fiziki dünyaya "köçürən" bir kanal kimi təqdim edir. Bu, ilham anının təbiətini daha vüsətli bir şəkildə izah edir.

**Universallığı əsaslandırır:** Müxtəlif mədəniyyətlərdən insanların eyni harmonik qanunlara oxşar reaksiyalar verməsinin səbəbini hamımızın eyni fundamental **informasiya şəbəkəsinə** "qoşulmuş" olmamızla izah edir.

**Subyektiv məna və təcrübənin önəmini bərpa edir:** Model, musiqi təcrübəsini sırf fiziki bir proses kimi deyil, şüur ilə fundamental reallıq arasında baş verən mənalı bir qarşılıqlı əlaqə kimi qələmə verir.

**2.2. Dekoherensiya probleminin aradan qaldırılması: Əsas konseptual fərq**. Ən güclü elmi etiraz – **dekoherensiya problemi** – kvant şüuru nəzəriyyələrinə (məsələn, Orch-OR) qarşı yönəlmişdir. Lakin, bizim modelimiz bu problemdən əsaslı şəkildə fərqlənir və buna görə də onun tənqidinə məruz qalmamalıdır.

- **Ənənəvi kvant şüuru nəzəriyyələri (Orch-OR):** Bu nəzəriyyələr **kvant hesablamalarının özünün beyində baş verdiyini** iddia edir. Yəni, superpozisiya, dolaşıqlıq kimi kvant hadisələri beynin fiziki strukturlarında (mikrotubullar) cərəyan etməlidir. Məhz buna görə də, beyinin "isti, nəm və səsküylü" mühiti bu incə kvant hallarını nanosaniyələr ərzində məhv edir (Tegmark, 2000).

- **Bizim kvant informasiya modelimiz:** Bu modeldə, əsas kvant prosesləri (superpozisiya vəziyyəti) beyində deyil, ondan xaricdə – fundamental "kvant in-

formasiya şəbəkəsində" baş verir. Bu şəbəkə, beyin kimi bioloji məhdudiyyətlərə məruz qalmır və kvant hallarını qorumaq üçün ideal şəraitə malik ola bilər.

Buna görə də, beyinin vəzifəsi kvant hesablamaları aparmaq deyil, artıq hazır olan bu informasiya ilə qarşılıqlı əlaqədə olmaq və onu "çökdürmək"dir. Beyin, informasiya şəbəkəsindəki superpozisiya halındakı ehtimalları qəbul edən və onlardan birini – xüsusi bir melodiyanı, sözü, anlamı – öz neyron-fizioloji strukturu vasitəsilə konkretləşdirən (kollaps edən) bir qurğudur. Kvant hadisəsi (superpozisiya) şəbəkədə, klassik hadisə (çökmə/emal) isə beyində baş verir. Bu, dekoherensiya problemini kökündən aradan qaldırır, çünki model beyində uzunmüddətli kvant koherentliyinə ehtiyac duymur.

**2.3. Modelin məhdudiyyətləri və statusu: Elmi nəzəriyyə yoxsa, hermenevtik metafora?** Bu konseptual uğura baxmayaraq, modelin digər məhdudiyyətləri onun statusunu aydınlaşdırır. Belə ki, hazırki dönəmdə hər hansı bir empirik sınaq mümkün deyil, modelin "informasiya şəbəkəsi" və "enerji rezonansı" kimi mərkəzi anlayışları hazırkı elmi metodlarla ölçülə bilmir və ya birbaşa yoxlanıla bilmir, ona görə də kvant terminlərinin bu şəkildə istifadəsi onların dəqiq riyazi mənasını deyil, daha çox izahedici bir analogiyanı ötürür.

**Nəticə etibarilə, Kvant İnformasiya Modeli, elmi bir nəzəriyyə olmaq iddiasında deyil. Onun həqiqi dəyəri, bir hermenevtik (izahverici) metafora kimi çıxış edərək, musiqinin insan təcrübəsindəki dərin mənasını anlamaq üçün zəngin bir dil və çərçivə təmin etməsindədir.**

O, ənənəvi nevrobilimi tamamlayır, onunla rəqabət aparmır. Nevrobilim bizə musiqinin beyindəki "partiturasını" verir – hansı alətlərin (neyronların) nə zaman çaldığını göstərir. Kvant İnformasiya Modeli isə bu musiqinin ruhunu – onun haradan gəldiyini, niyə mənalı olduğunu və bizim onunla necə vahid olduğumuzu anlamağa çalışır. Bu, elmin "necə" sualı ilə fəlsəfənin "niyə" sualını birləşdirmək cəhdidir.

Növbəti bölmədə bu multidissiplinar perspektiv əsasında qurulan Enerji-informasiya modelinin detallarını təqdim edirik.

## 3. ENERJİ_İNFORMASİYA MODELİNİN XÜSUSİYYƏTLƏRİ VƏ YA MUSİQİNİN ONTOLOJİ_ENERJİ MODELİ

**3.1. Ontoloji baza: Musiqi kainatın hansı təbəqəsində mövcuddur?** Təklif etdiyimiz modelə görə musiqi fundamental olaraq fiziki səviyyədən əvvəl mövcuddur. Bu baxımından Platonun "İdealar aləmi" konsepsiyası ilə müasir "kvant informasiya sahəsi" anlayışları arasında əlamətdar paralellər mövcuddur.

Musiqi bu kontekstdə fiziki hadisədən əvvəl mövcud olan riyazi-harmonik prinsip kimi başa düşülür.

Bu ontoloji baza üç əsas sübutla təsdiqlənir:

Birincisi, musiqi qanunlarının riyazi universallığıdır. Pifaqor intervalları bütün mədəniyyətlərdə eyni akustik prinsiplərə əsaslanır. Bu, onların insan qavrayışından asılı olmayan obyektiv mövcudluğuna işarə edir.

İkincisi, təbii aləmdə musiqi fenomenidir. Quş nəğmələri, balina mahnıları və həşəratların ünsiyyət sistemləri musiqinin insandan əvvəl və xaric mövcud olduğunu sübut edir. Bioakustika tədqiqatları göstərir ki, heyvan səsləri təsadüfi deyil, müəyyən harmonik qanunauyğunluqlara tabedir.

Üçüncüsü isə insanın bio-ritmik kökləridir. Ana laylası və ya yuxu mahnıları bütün mədəniyyətlərdə oxşar xüsusiyyətlər daşıyır. Bu, musiqinin insanın bioloji və emosional sahəsi ilə qədim və daxili bir rezonans qurduğunu göstərir. Körpələrin müəyyən tembr və melodiyalara avtomatik reaksiyası, bu əlaqənin hələ tam öyrənilməmiş olduğunu sübuta yetirir. Sonrakı tədqiqatlarımızda biz bu fenomenin arxetiplərə əsaslana bilən bəzi izahlarını verməyə çalışırıq.

**3.2. Musiqinin kvant informasiya modeli.** Ənənəvi elmin “həzm prosesi” izahı ilə kvant şüurunun elmi cəhətdən problemli tətbiqi arasında bir yerdə, üçüncü bir yol mövcuddur: kvant prinsiplərindən ilhamlanan, lakin onları birbaşa fiziki təsir kimi deyil, güclü bir fəlsəfi metafora kimi istifadə edən bir model. Bu, Kvant İnformasiya Modelidir. Onun mərkəzində, musiqi yaranma prosesinin “qidalanma” ilə olan dərin anologiyası durur.

**3.2.1. Fundamental anolojiya: Aclıq, istək və qida kimi musiqi.** Ənənəvi neyrobilim bizə yeməyin ağızdan bağırsaqlara qədər olan “həzm prosesi”ni izah edir. Lakin bu, daha dərin suallara cavab vermir: **Niyə acıram? Niyə məhz alma, çiyələk deyil, niyə, məsələn indi mən sup yemək istəyirəm? Alma ağacı niyə alma yetişdirir? İki növ, təbiətdən hazır şəkildə aldığımız və özümüz bişirdiyimiz yeməklər qidalanma zəncirinin bir hissəsi kimi baxılmalıdır, yoxsa onlar qidalanma zəncirinə müəyyən ehtiyac yarandığında daxil olur?** Eynilə, musiqi üçün: **“Həzm elmi”:** Səs dalğasının qulaqdan beyinə qədər olan səfəri (necə). **“Qidalanma modeli”:** Musiqinin niyə mövcud olduğu, niyə onu yaratmaq və eşitmək ehtiyacı hiss etdiyimiz, və onun haradan yaranıb bizə çatdığı (niyə). Məhz bu “niyə” suallarına cavab vermək üçün aşağıdakı postulatları irəli sürürük:

**3.2.2. Modelin üç əsas postulatı. Postulat 1: Musiqi superpozisiya halındadır – Kainatın qida anbarı.** Kainatın fundamental səviyyəsində, fiziki

maddədən daha üstün olan bir informasiya şəbəkəsi və ya enerji sahəsi mövcud-dur. Bu sahədə bütün mümkün melodik, harmonik, ritmik və emosional kombinasiyalar – bütün yazılmış və yazılmaq potensialı daşıyan musiqi əsərləri – ehtimal dalğaları, yəni superpozisiya halında potensial şəklində mövcuddur. Bu, sonsuz bir "musiqi ehtimalları pleroması"dır. **Fəlsəfi əsas:** Bu ideya, Platonun İdeyalar Nəzəriyyəsi ilə birbaşa rezonansdadır. Platon üçün fiziki dünyadakı bir şey (gözəl bir musiqi parçası) əslində daha yüksək, qeyri-maddi bir reallıqda mövcud olan müvafiq İdeyanın (mükəmməl Harmoniyanın) kölgəsidir. Bənzər şəkildə, David Bohmun "örtülü nizam" (implicate order) anlayışı da bu modelə dayaq verir. Bohma görə, bizim qavradığımız ayrı-ayrı hadisələr dünyası (açıq nizam), daha dərin, bölünməz və hər şeyin bir-birinə "büküldüyü" bir tamlığın (örtülü nizam) açılmasıdır. Musiqi informasiya sahəsi, Bohmun örtülü nizamına, fiziki səs isə onun açıq nizama çıxmış formasına uyğun gəlir.

**Anolojiya ilə əlaqə:** Bu, **kainatın qida anbarı** kimi təsəvvür oluna bilər. Bu anbarda bütün mümkün qidaların "reseptləri" (çörək, plov, sup, dovğa, dolma və s) və ya "informasiya nümunələri" (alma, armud, buğda, düyü, heyvanlar, bitgilər və s) potensial halda mövcuddur. Heç biri hələ fiziki deyil, lakin onların hamısı var olmaq ehtimalına malikdir.

**Postulat 2: Şüur "Çökdürən" amildir – aclıq, zövq və bişirmə**. Bəstəkarın, ifaçının və dinləyicinin şüuru, bu informasiya sahəsi ilə qarşılıqlı əlaqədə olmaq qabiliyyətinə (kvant dolaşıqlığı) malikdir. Bu qarşılıqlı təsir – diqqət, niyyət, emosional vəziyyət – superpozisiya halındakı ehtimallardan birinin reallıq planına keçməsinə, yəni **"çökməsinə"** səbəb olur. Bu, kvant mexanikasındakı "müşahidəçi effekti"nin metaforik bir tətbiqidir.

**Bəstəkar ("Kanal" və ya "Aşpaz"):** Bəstəkar sadəcə "yaradan" deyil. O, fundamental informasiya sahəsində artıq mövcud olan bir musiqi ehtimalını öz şüuru ilə "kəşf edən" və ya "qəbul edən" bir kanaldır. Onun yaradıcılığı, bu qeyri-maddi harmoniyanı fiziki dünya üçün nota alınmış bir kod formasına salmaqdır. Bu, aclıq hissi ilə müəyyən bir qidanın reseptini axtaran və onu bişirən aşpaza bənzəyir.

**İfaçı ("Transduser" və ya "Zövq Ustası"):** İfaçı, bəstəkarın yaratdığı bu simvolik kodu (notları) yenidən enerjiyə çevirir. Lakin o, bunu sadə bir maşın kimi deyil; öz emosiyaları, texnikası və şərhi ilə edir. O, "xammal qidanı" alır və onu unikal bir ləzzət təcrübəsinə çevirir.

**Dinləyici ("Rezonator" və ya "Qonaq"):** Dinləyici passiv deyil. O, fiziki səsi qəbul edir, lakin həqiqi musiqi təcrübəsi onun şüurunun bu səsin arxasındakı

orijinal “informasiya nümunəsi” ilə rezonansa girməsindən yaranır. Dinləyici öz yaddaşı, emosiyaları və mədəni konteksti ilə musiqini özünəməxsus şəkildə “həzm edir” və ona şəxsi məna yükləyir. O, təklif olunan qidanı qəbul edib onu öz bədəninə çevirən qonaqdır.

**Postulat 3: Fiziki reallıq nəticədir – yeməyin özü**. Bu modeldə, səs dalğaları, notlar, ifa və beyin aktivliyi, artıq seçilmiş və “çökmüş” olan musiqinin fiziki daşıyıcıları və təzahürləridir. Onlar səbəb deyil, nəticədir. Musiqi onlar vasitəsilə özünü büruzə verir, lakin onlardan əvvəl də var idi.

**Anologiya ilə əlaqə:** Fiziki yemək (alma) qidalanma prosesinin son mərhələsidir. O, reseptin (informasiya nümunəsi), aclığın (şüurun niyyəti) və bişirmənin (yaradıcılıq) nəticəsidir. Eynilə, fiziki musiqi də informasiya, şüur və ifanın nəticəsidir.

Ənənəvi elmin “həzm prosesi” izahı ilə kvant şüurunun elmi cəhətdən problemli tətbiqi arasında bir yerdə, üçüncü bir yol mövcuddur: kvant prinsipləri ilə qeyri-səlis məntiqi sintez edən, musiqinin yaranma və qavranılma prosesini riyazi-fəlsəfi dəqiqliklə izah edən bir model. Bu, Kvant-Qeyri-Səlis İnformasiya Modelidir.

**Modelin üç əsas postulatı . Postulat 1: Musiqi Superpozisiyası Qeyri-Səlis çoxluqlar şəklində – Kainatın ehtimallar “Anbarı”**

Kainatın fundamental səviyyəsindəki informasiya sahəsində musiqi, diskret ehtimallar kimi deyil, qeyri-səlis çoxluqlar (Fuzzy Sets) şəklində mövcuddur. Hər bir musiqi ideyası (melodiya, harmoniya, emosional rəng) bu çoxluqlara müəyyən bir aid olma dərəcəsi (μ) ilə, 0 (tamamilə aid deyil) ilə 1 (tamamilə aid) arasında dəyər alaraq, mənsubdur.

**Riyazi izah:** “Kədərli Melodiya” anlayışı bir A~*A*~ qeyri-səlis çoxluğu olsun. Müəyyən bir minor üçlüyü bu çoxluğa μA~(minoru¨c\clu¨k)=0.9 dərəcəsi ilə, bir xromatik gediş isə μA~(xromatikgedis\c)=0.6 dərəcəsi ilə aid ola bilər. Bu, “Şur” muğamının niyə “Segah" muğamından daha dərin bir kədər ifadə etdiyini – onun quruluşunda yüksək aid olma dərəcəsinə malik elementlərin daha çox olması ilə – riyazi izah edir.

**Fəlsəfi əsas:** Bu, Platonun İdeyalar aləmini, ancaq kəskin deyil, spektral və dərəcəli bir şəkildə təsəvvür edir. Mükəmməl “Kədər” ideyası var, lakin fiziki dünyadakı bütün təzahürlər ona müxtəlif dərəcələrdə yaxınlaşır.

